DOI: https://doi.org/10.36719/2706-6185/56/19-24

**Nəhayət İsgəndərova**
Bakı Dövlət Universiteti
dissertant
https://orcid.org/0000-0002-2877-8944
nehayet87@gmail.com

# XX əsrin əvvəllərində Şimali Azərbaycan siyasi həyatında milli partiyalar

## Xülasə

Məqalədə XX əsrin əvvəllərində Şimali Azərbaycanın siyasi həyatında milli yönümlü siyasi partiyaların formalaşması və fəaliyyəti araşdırılır. Tədqiqatda Rusiya imperiyasının müstəmləkə siyasəti, 1905–1907-ci illər inqilabi hadisələri, erməni-müsəlman qarşıdurmaları və Birinci Dünya müharibəsi fonunda milli siyasi təşkilatlanmanın xüsusiyyətləri təhlil olunur. “Qeyrət”, “Difai”, “Müdafiə” və “Müsavat” partiyalarının ideoloji əsasları, sosial tərkibi və təşkilati strukturları müqayisəli şəkildə öyrənilir. Məqalədə əsaslandırılır ki, bu partiyalar milli özünüdərk prosesinin sürətlənməsində, siyasi şüurun formalaşmasında və Azərbaycan dövlətçiliyinin ideoloji bazasının yaradılmasında mühüm rol oynamışdır.

***Açar sözlər:*** *milli hərəkat, siyasi partiyalar, Difai, Müsavat, Qeyrət, Şimali Azərbaycan, XX əsrin əvvəlləri*

**Nahayat Isgenderova**
Baku State University
PhD student
https://orcid.org/0000-0002-2877-8944
nehayet87@gmail.com

# National Parties in the Political Life of Northern Azerbaijan in the Early 20th Century

## Abstract

The article analyzes the emergence and activities of national political parties in Northern Azerbaijan in the early twentieth century. It examines the influence of Tsarist colonial policy, the 1905–1907 revolutionary events, Armenian-Muslim conflicts, and World War I on national political organization. The ideological foundations, social bases, and organizational structures of the “Geyrat”, “Difai”, “Mudafiya”, and “Musavat” parties are studied. The research concludes that these parties played a key role in shaping national consciousness and preparing the ideological groundwork for Azerbaijani statehood.

***Keywords:*** *national movement, political parties, Difai, Musavat, Qeyrat, Northern Azerbaijan, early 20th century*

## Giriş

XX əsrin əvvəlləri Rusiya imperiyası üçün dərin struktur böhranları, siyasi legitimliyin zəifləməsi və mərkəz-ucqar münasibətlərinin kəskinləşməsi ilə səciyyələnən bir mərhələ olmuşdur. İmperiya daxilində sənayeləşmə prosesinin sürətlənməsi, fəhlə sinfinin təşəkkülü, kapitalist münasibətlərin genişlənməsi və milli ucqar bölgələrdə siyasi oyanış yeni ideoloji modellərin və siyasi təşkilatlanma formalarının meydana çıxmasına şərait yaratmışdır. Bu proseslər imperiyanın siyasi sistemində mövcud olan ziddiyyətləri daha da dərinləşdirərək mərkəzi hakimiyyətin nəzarət imkanlarını zəiflətmişdir.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Şimali Azərbaycan bu transformasiya proseslərinin ən intensiv şəkildə cərəyan etdiyi bölgələrdən biri olmuşdur. Bölgənin iqtisadi potensialı, xüsusilə neft sənayesinin sürətli inkişafı, sosial təbəqələşməni kəskinləşdirmiş, fəhlə və burjuaziya zümrələrinin formalaşmasını sürətləndirmişdir. Bu dövrdə Azərbaycanda ictimai-siyasi həyatın aktivləşməsi nəticəsində müxtəlif ideoloji cərəyanlara əsaslanan siyasi təşkilatlar formalaşmağa başlamışdır. Mövcud siyasi təşkilatları ideoloji istiqamətlərinə və sosial bazalarına görə şərti olaraq üç əsas qrupa bölmək mümkündür: sosialist yönümlü partiyalar, liberal-siyasi təşkilatlar və milli yönümlü partiyalar. Xüsusilə milli yönümlü partiyalar Azərbaycan cəmiyyətində milli özünüdərk prosesinin sürətlənməsi, ictimai konsolidasiyanın möhkəmlənməsi və gələcək dövlətçilik ideyalarının formalaşması baxımından mühüm rol oynamışdır. Bu baxımdan, XX əsrin əvvəllərində Şimali Azərbaycanın siyasi həyatında fəaliyyət göstərmiş milli partiyaların təşəkkülü, ideoloji əsasları və fəaliyyəti yalnız siyasi tarix kontekstində deyil, həm də milli-mədəni inkişaf və ictimai transformasiya proseslərinin ayrılmaz tərkib hissəsi kimi araşdırılmalıdır.

Tədqiqatın metodoloji–nəzəri əsasları: Bu tədqiqat XX əsrin əvvəllərində Şimali Azərbaycanın siyasi həyatında milli yönümlü partiyaların formalaşması və fəaliyyəti problemini çoxsəviyyəli metodoloji və nəzəri çərçivə əsasında tarixi aspektdən araşdırmağı qarşıya məqsəd qoyur. Məqalədə tarixi hadisələrin obyektiv və kompleks təhlilini təmin etmək məqsədilə tarixi-xronoloji, problem-tematik və müqayisəli-tarixi metodlardan istifadə olunmuşdur. Tarixi-xronoloji metod milli siyasi partiyaların təşəkkül mərhələlərini, inkişaf dinamikasını və tənəzzül səbəblərini ardıcıllıqla izləməyə imkan verir. Problem-tematik yanaşma isə partiyaların ideoloji əsaslarını, sosial bazasını və fəaliyyət istiqamətlərini ayrı-ayrı mövzular çərçivəsində təhlil etməyə şərait yaradır. Müqayisəli-tarixi metod vasitəsilə Şimali Azərbaycanda fəaliyyət göstərmiş milli yönümlü partiyalar regionun digər siyasi təşkilatları, eləcə də Rusiya imperiyasının periferiya ərazilərində yaranmış oxşar milli hərəkatlarla müqayisə edilmişdir. Bu yanaşma milli partiyaların ümumi imperiya miqyasında tutduğu yeri və spesifik xüsusiyyətlərini müəyyənləşdirməyə imkan vermişdir.

Araşdırmanın nəzəri əsaslarından biri modernləşmə nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə, sənayeləşmə, şəhərləşmə, təhsilin yayılması və yeni sosial təbəqələrin formalaşması siyasi institutların yenilənməsini zəruri edir. XX əsrin əvvəllərində Şimali Azərbaycanda baş verən iqtisadi və sosial dəyişikliklər mövcud imperiya idarəçilik modelinin bu çağırışlara cavab vermədiyini üzə çıxarmışdır. Nəticədə, siyasi iştirakın yeni formaları – partiyalar, cəmiyyətlər və qeyri-rəsmi təşkilatlar meydana çıxmışdır. Bu baxımdan milli siyasi partiyalar cəmiyyətin modernləşmə ehtiyaclarına cavab verən alternativ siyasi mexanizmlər kimi çıxış etmiş, sosial narazılıqları ideoloji və təşkilati müstəviyə daşımışdır.

**Tədqiqat**

Tədqiqatda mərkəz–periferiya modeli mühüm analitik alət kimi istifadə edilmişdir. Rusiya imperiyasının idarəçilik sistemində mərkəzin siyasi və iqtisadi üstünlüyü, periferiya bölgələrinin isə asılı və tabeli mövqeyi Şimali Azərbaycanın sosial-siyasi inkişafını məhdudlaşdırmışdır. Mərkəzin maraqlarına əsaslanan müstəmləkə siyasəti yerli cəmiyyətin siyasi iştirak imkanlarını daraltmış, bu isə milli etiraz və müqavimət formalarının təşəkkülünü sürətləndirmişdir. Araşdırmanın konseptual çərçivəsində milli hərəkatlar nəzəriyyəsi xüsusi yer tutur. Bu nəzəriyyə milli hərəkatları yalnız emosional və ya spontan etiraz forması kimi deyil, kollektiv identikliyin formalaşmasına yönəlmiş məqsədyönlü siyasi proses kimi izah edir. Şimali Azərbaycanda milli partiyalar fərdi və lokal narazılıqları ümummilli siyasi diskursa çevirən institusional strukturlar rolunu oynamışdır. Milli ideologiyanın formalaşması, dil, mədəniyyət və tarix amillərinin siyasi proqramlara daxil edilməsi bu partiyaların fəaliyyətində əsas xətti təşkil etmişdir. Bu kontekstdə "Qeyrət", "Difai", "Müdafiə" və "Müsavat" partiyalarının fəaliyyəti milli kollektiv şüurun təşəkkülü prosesinin müxtəlif mərhələlərini əks etdirir. Mənbələrə tənqidi yanaşma prinsipi əsas götürülərək, çar məmurlarının hesabatları və sovet dövrü tədqiqatlarının ideoloji məhdudiyyətləri nəzərə alınmışdır. Bu yanaşma hadisələrin daha obyektiv və balanslı təhlilinə imkan vermişdir.

Şimali Azərbaycanda milli özünüdərk prosesinin formalaşması və ideoloji əsasları: Azərbaycan cəmiyyətində milli özünüdərk prosesinin ümumtürk və ümumislam kimliyindən ayrılaraq müstəqil milli identiklik mərhələsinə keçidi XIX əsrin ikinci yarısından etibarən sürətlənmişdir. Bu prosesin ideoloji əsasları milli dilin, ədəbiyyatın və mədəniyyətin inkişafı ilə sıx bağlı olmuşdur.

M.F.Axundov, H.B.Zərdabi, C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid və digər ziyalıların fəaliyyəti Azərbaycan dilinin ictimai-siyasi mühitdə möhkəmlənməsinə, milli identikliyin formalaşmasına mühüm töhfə vermişdir. Bu ziyalı nəsil milli dövlətçilik ideyasının ideoloji bünövrəsini yaratmışdır.

1904-cü il rus-yapon müharibəsi və 1905-ci il inqilabı Rusiya imperiyası daxilində milli hərəkatların fəallaşmasına səbəb olmuşdur. Çar hökumətinin milli məsələlərdə qeyri-obyektiv mövqeyi, xüsusilə erməni-müsəlman qarşıdurmaları Azərbaycan cəmiyyətində milli müdafiə və siyasi təşkilatlanma ehtiyacını gücləndirmişdir.

“Qeyrət” partiyası və federalist ideyaların təşəkkülü: Bu partiyalar arasında 1905-ci ildə Yelizavetpolda (indiki Gəncə) yaradılmış Türk Sosial-Federativ Partiyası – “Qeyrət” Firqəsi (Azərb.MDTA, f.7, siy.1, iş 620, v.162; f.12, siy.13, iş 250, v.44–45) xüsusi yer tutur. 1905-ci ildə Yelizavetpol (Gəncə) şəhərində yaradılmış Türk Sosial-Federativ Partiyası – “Qeyrət” firqəsi Şimali Azərbaycanda milli yönümlü siyasi təşkilatlanmanın ilk sistemli nümunələrindən biri kimi çıxış etmişdir. Partiyanın yaranması bir tərəfdən Rusiya imperiyasında 1905-ci il inqilabının yaratdığı nisbi siyasi liberallaşma mühiti, digər tərəfdən isə yerli cəmiyyət daxilində uzun müddət yığılıb qalmış sosial və milli ziddiyyətlərlə şərtlənmişdir. Çar hökumətinin mərkəzləşdirilmiş idarəçilik modeli və milli ucqarların siyasi proseslərdən kənarlaşdırılması Azərbaycan ziyalıları arasında alternativ siyasi modellərə marağı artırmışdır. “Qeyrət” partiyasının təşəkkül tapmasında Gəncə şəhərinin sosial-siyasi mühiti mühüm rol oynamışdır. XIX əsrin sonu – XX əsrin əvvəllərində Gəncə təkcə regional iqtisadi mərkəz deyil, eyni zamanda milli ziyalıların, maarifçi müəllimlərin, hüquqşünasların və mətbuat nümayəndələrinin cəmləşdiyi mühüm intellektual məkan idi. Burada formalaşmış milli ziyalı təbəqəsi imperiya daxilində baş verən siyasi prosesləri yaxından izləyir, Qafqazın digər bölgələrində, xüsusilə Gürcüstanda fəaliyyət göstərən siyasi təşkilatların təcrübəsindən bəhrələnirdi.

“Qeyrət”in yaranması eyni zamanda Şimali Azərbaycanda siyasi mübarizənin fərdi təşəbbüslərdən təşkilatlanmış formaya keçidinin göstəricisi idi. Partiya milli maraqların müdafiəsini sistemli siyasi fəaliyyət müstəvisinə daşımaq cəhdi kimi dəyərləndirilə bilər. “Qeyrət” partiyasının proqramı Rusiya imperiyasının mövcud dövlət quruluşunun köklü şəkildə dəyişdirilməsini deyil, onun federativ əsaslar üzərində yenidən təşkili ideyasını irəli sürürdü. Partiya Rusiyanın tərkibində yaşayan xalqların, xüsusilə müsəlmanların kompakt məskunlaşdığı ərazilərdə milli-mədəni və siyasi muxtariyyətin yaradılmasını əsas məqsədlərdən biri kimi müəyyən etmişdir. Bu yanaşma partiyanın müstəqillikdən daha çox muxtariyyət və özünüidarə ideyasına üstünlük verdiyini göstərir. İdeoloji baxımdan “Qeyrət” firqəsinin proqramının Gürcüstan Sosial-Federalist Partiyasının konseptual müddəalarına yaxın olduğu qeyd olunur. “Qeyrət” partiyasının fəaliyyəti əsasən Gəncə və ətraf bölgələrlə məhdudlaşsa da, onun irəli sürdüyü federalist və milli-muxtariyyət ideyaları Şimali Azərbaycanda siyasi düşüncənin inkişafına ciddi təsir göstərmişdir. Xüsusilə sonrakı dövrdə yaranan milli yönümlü siyasi təşkilatlar üçün “Qeyrət” firqəsi ideoloji və təşkilati baxımdan ilkin təcrübə rolunu oynamış, milli siyasi mübarizənin konseptual çərçivəsinin formalaşmasına töhfə vermişdir.

**“Difai” partiyası:** milli müdafiə və siyasi təşkilatlanma: 1905–1907-ci illər Şimali Azərbaycanda milli və dini qarşıdurmaların intensivləşdiyi dövr idi. Xüsusilə erməni-müsəlman toqquşmaları və çar hakimiyyətinin tərəfkeş mövqeyi müsəlman əhalinin özünü qoruma ehtiyacını daha da aktuallaşdırmışdır. Bu şəraitdə 1906-cı ildə yaradılmış “Difai” partiyası milli müdafiə və hüquqların qorunması məqsədilə formalaşmış ilk təşkilatlanmış hərbi-siyasi qurumlardan biri olmuşdur. Partiyanın yaradılmasını həm də Şimali Azərbaycanda milli və sosial ziddiyyətlərin dərinləşməsi, imperiya daxilində mərkəzlə ucqar bölgələr arasında əlaqələrin qeyri-bərabərliyi şərtləndirmişdir. “Difai”nin proqram və fəaliyyət istiqaməti həm milli hüquqların müdafiəsi, həm də sosial ədalət prinsiplərinə əsaslanırdı. Bu, partiyanı sırf hərbi müdafiə dəstəsi kimi deyil, eyni zamanda siyasi təşkilat kimi də qiymətləndirməyə imkan verir. H.Baykara ikinci partiyanın 1905-ci ildə Qafqazda ermənilərin türk və müsəlman əhalisinə qarşı törətdikləri qırğın zamanı Əhməd Ağayev tərəfindən yaradılan “Difai” partiyasının olduğunu bildirir (Baykara, 1992, s. 71–72). Lakin onun bu partiyanı həm də “Müdafiə təşkilatı” adlandırması fikri yanlışdır (Süleymanova, 2022, s. 339). Partiyanın əsas məqsədi Azərbaycan türklərinin həyatını, mülkiyyətini və hüquqlarını qorumaq idi. Bununla yanaşı, “Difai” milli şüurun formalaşması və yerli əhalinin siyasi fəallaşması üçün zəruri struktur rolunu

oynamışdır. Partiyanın yaranması eyni zamanda Şimali Azərbaycanda milli siyasi təşkilatlanmanın sistemli mərhələyə keçidinin göstəricisi kimi qəbul edilə bilər. "Difai" partiyasının mərkəzi qərargahı Bakıda yerləşsə də, onun əsas fəaliyyəti Qarabağ, Gəncə, Zəngəzur və digər qərb bölgələrində aparılmışdır. Partiya geniş şəbəkəli yerli komitələr və silahlı dəstələr yaratmaqla həm milli müdafiəni təmin etmiş, həm də yerli idarəetmə boşluqlarını qismən doldurmuşdur.

1907-ci ildə Qarabağda yaradılmış "Qarabağ İttifaq Məclisi" 53 maddədən ibarət Nizamnamə qəbul etmiş, məhkəmə, torpaq və ictimai nəzarət sahələrində geniş səlahiyyətlər qazanmışdır (Bağırzadə, 2006, s. 43). Bu, "Difai"nin təkcə hərbi və müdafiə funksiyası ilə məhdudlaşmadığını, həm də yerli ictimai-siyasi institutların təşkili və idarə olunmasında rol oynadığını göstərir. Fəaliyyət mexanizmi baxımından partiya mərkəzi komitə ilə yerli komitələr arasında koordinasiyalı idarəetmə sistemi qurmuş, həm silahlı müdafiə, həm də maarifçilik və ictimai təşviqat fəaliyyətlərini paralel həyata keçirmişdir. Bu xüsusiyyət onu yalnız silahlı təşkilat deyil, eyni zamanda siyasi və sosial idarəçilik potensialına malik proto-institut səviyyəsinə çıxarmışdır. "Difai" komitələrinin bəzi bölgələrdə faktiki olaraq çar idarəçiliyini əvəz etməsi, sosial ədalət və torpaq məsələlərində kəndlilərin maraqlarını qoruması partiyanın siyasi rolunu daha da möhkəmləndirmişdir.

**"Müdafiə" təşkilatı:** yaranma şəraiti, sosial bazası, proqram və ideoloji istiqaməti: 1907-ci ildə Qazax qəzasında yaradılmış "Müdafiə" təşkilatı Şimali Azərbaycanda milli və ictimai fəallığın yeni forması kimi ortaya çıxmışdır. Bu təşkilatın yaradılmasında yerli əhalinin maarifçilik ehtiyacı, milli şüurun gücləndirilməsi və "Difai"nin radikal müdafiə modelinə alternativ axtarışları əsas rol oynamışdır. "Müdafiə"nin fəaliyyəti Qazax, Borçalı və Tiflis ətrafı bölgələri ilə məhdudlaşsa da, bu bölgələrdə yerli siyasi təşəbbüslərin sistemləşdirilməsinə və ictimai şüurun formalaşmasına təkan vermişdir. Təşkilatın sosial bazası əsasən kəndli və orta təbəqə əhalidən ibarət olmuş, yerli ziyalılar isə ideoloji və təşkilati dəstək təmin etmişdir. "Müdafiə" təşkilatının çağırış vərəqəsində "Difai" proqramına yaxın ideyaların ifadə olunması onun milli müdafiə xəttinə ideoloji bağlılığını göstərir. Lakin təşkilat zorakı mübarizədən çəkinmiş və əsasən maarifçilik, ictimai təşviqat və regional təşkilatlanma yolu ilə fəaliyyət göstərmişdir. Bu baxımdan, "Müdafiə" milli siyasi təşkilatlanmanın daha yumşaq, qeyri-zorakı forması kimi qiymətləndirilə bilər. Bəzi mənbələrə görə, "Müdafiə"nin fəaliyyəti 1909 ilə qədər davam etmişdi (Müdafiə // Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2005, s. 218).

Beləliklə, "Müdafiə" həm regionda milli siyasi təşəbbüslərin mərkəzləşdirilmiş strukturu, həm də zorakı mübarizə alternativi kimi çıxış edərək, Şimali Azərbaycanda siyasi təşkilatlanmanın müxtəlif formalarda inkişafının göstəricisi olmuşdur.

"Müsavat" partiyası və milli-demokratik ideologiyanın formalaşması: 1911-ci ildə yaradılmış "Müsavat" partiyası Şimali Azərbaycanda milli azadlıq ideyalarının ideoloji mərkəzinə çevrilmişdir. Partiyanın ilk proqramı panislamist ritorika ilə zəngin olsa da, mahiyyət etibarilə antiimperialist məzmun daşımışdır. Bu dövr üçün "Müsavat" həm yerli ictimai şüuru birləşdirən, həm də Rusiyanın mərkəzləşdirilmiş hakimiyyətinə qarşı siyasi alternativ rolunu oynayan platforma kimi çıxış etmişdir. İlkin proqramda müsəlman əhalinin milli hüquqlarının müdafiəsi, mədəniyyət və təhsil sahəsində autonomiyanın təmin edilməsi kimi məsələlər ön plana çıxmış, partiya eyni zamanda ictimai və siyasi fəallığın inkişafı üçün yeni ideoloji çərçivə təqdim etmişdir. 1913-cü ildə M.Ə.Rəsulzadənin Rusiyaya qayıdışı "Müsavat" partiyasının ideoloji xəttinin milli-demokratik istiqamətdə formalaşmasında dönüş nöqtəsi olmuşdur. Onun təşəbbüsü ilə partiya yalnız milli hüquqların müdafiəsi ilə kifayətlənməmiş, həm də cəmiyyətin demokratik inkişafına, siyasi maarifçiliyin yayılmasına və vətəndaş fəallığının təşviqinə yönəlmiş strateji platforma əldə etmişdir. Tahir Sünbül yazır ki: "Musavat 1913-cü ildə M.Ə.Rəsulzadənin kşiliyində, siyasi baxımdan təcrübəli və fikri olaraq səlaiyyətini ispatlamış bir öndərə sahib olmuşdu" (Sünbül, 1999, s. 42).

Rəsulzadə "ümma" anlayışını milli kimlik anlayışı ilə əvəz edərək, milli dili mədəniyyətin, təhsilin və siyasi iştirakçılığın əsas elementi kimi təqdim etmişdir. O, həmçinin siyasi vəzifələri milli identiklik və demokratik prinsiplərlə bağlamağa çalışmış, bunun nəticəsində "Müsavat" ideoloji baxımdan panislamist ritorikadan milli-demokratik yönümlü siyasi proqrama keçmişdir. Rəsulzadənin ideoloji rəhbərliyi partiyanın yalnız siyasi qurum kimi fəaliyyətini deyil, həm də intellektual və mədəni mərkəz kimi rolunu möhkəmləndirmişdir. O, partiyanın üzvlərini siyasi təlim

və maarifçilik fəaliyyətinə cəlb edərək, onların milli və demokratik şüurunu artırmış, beləliklə "Müsavat"ın regional və milli səviyyədə nüfuzunu genişləndirmişdir. Beləliklə, partiya həm regional, həm də milli siyasətdə nüfuzunu gücləndirmiş və gələcək demokratik-hüquqi təşəbbüslərin ideoloji təməlini qoymuşdur. M.Ə.Rəsulzadənin 1913–1914-cü illərdə müxtəlif qəzet və jurnallarda dərc etdirdiyi məqalələrdə islamçılıqdan türkçülüyə dönüş özünü biruzə verməyə başladı (Süleymanova, 2022, s. 385). Birinci Dünya müharibəsi dövründə Azərbaycan siyasi qüvvələri arasında ideoloji parçalanma müşahidə olunmuşdur. Sosial-demokratlar, "Hümmət" partiyası və milli təşkilatlar müharibəyə fərqli yanaşmalar sərgiləmişdir. Bu dövrdə Aslan xan Xoyskinin Osmanlı rəhbərliyi ilə apardığı danışıqlar və xaricdə fəaliyyət göstərən siyasi mühacirlərin təşəbbüsləri Azərbaycan siyasi elitasının artıq müstəqil dövlət modeli üzərində düşündüyünü nümayiş etdirir (Svyatochovskiy, 1990, s. 115; Swietochowski, 1988, s. 115; Məmmədov, 2005, s. 157; Qafarov, 2020, s. 48; Muradov, 2013, s. 11). Bu dövrdə Azərbaycan milli hərəkatı təkcə ölkə daxilində deyil, həm də xaricdə – xüsusilə Osmanlı dövlətində fəaliyyət göstərən siyasi mühacirlər tərəfindən davam etdirilirdi. 1915-ci ildə Əli bəy Hüseynzadə Yusif Akçura və digər "İttihad və Tərəqqi" tərəfdarları ilə birlikdə "Turan heyəti" adlanan təşəbbüs qrupunun tərkibində Avropanın müxtəlif ölkələrində siyasi fəaliyyətlə məşğul olmuşdur. Bu fəaliyyətin əsas məqsədi Rusiya imperiyası tərəfindən hüquqları məhdudlaşdırılmış müsəlman xalqlarının azadlığına diqqət çəkmək idi. 1916-cı ildə Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və gənc türklərin digər nümayəndələri ilə birlikdə ABŞ Prezidenti Vudro Vilsona müraciət edərək, Rusiya müsəlmanlarının ağır vəziyyətini dünya ictimaiyyətinin diqqətinə çatdırmışdılar. Bu dövrdə onların fəaliyyəti "Rusiya məhkumu müsəlman türk-tatarların hüququnu müdafiə komitəsi" çərçivəsində təşkil olunmuşdu. Müharibənin son mərhələsində isə Osmanlı hökuməti Əli bəy Hüseynzadəyə xüsusi bir siyasi tapşırıq verərək, onu Bakıya göndərmişdir. Onun əsas vəzifəsi Azərbaycanın gələcəkdə dövlət kimi təşəkkülü məsələsini yerli siyasi və ictimai elita ilə birgə müzakirə etmək idi (Məmmədov, 2005, s. 157).

Beləliklə, Birinci Dünya müharibəsi dövründə Azərbaycan milli hərəkatı həm daxildə, həm də beynəlxalq səviyyədə özünün siyasi təşəbbüsləri ilə seçilmişdir. Aslan xan Xoyskinin Osmanlı rəhbərliyi ilə apardığı danışıqlar göstərir ki, Azərbaycan siyasi elitası artıq bu mərhələdə müstəqil dövlət modeli haqqında düşünməyə başlamışdı. Bununla paralel olaraq, Osmanlıda fəaliyyət göstərən siyasi mühacirlər – Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və başqaları – türk-müsəlman dünyasının birliyi və Rusiya müsəlmanlarının hüquqlarının müdafiəsi istiqamətində fəal iş aparırdılar. Bu cəhdlər həm regionun siyasi gələcəyinə dair strateji planların qurulmasında, həm də milli özünüdərk prosesinin sürətlənməsində əhəmiyyətli rol oynamışdır.

Beləliklə, Azərbaycan milli hərəkatının xarici və daxili səviyyələrdə koordinasiyalı fəaliyyəti, gələcək dövlətçiliyin ideoloji və təşkilati əsaslarını formalaşdırmışdır (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2005, s. 315–316).

## Nəticə

XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli siyasi təşkilatlanmanın təşəkkülü həm Rusiya imperiyasının struktur böhranları, həm də regionun sosial-iqtisadi xüsusiyyətləri ilə əlaqədar baş vermişdir. Bu dövrdə yaranan "Qeyrət", "Difai", "Müdafiə" və "Müsavat" təşkilatları yalnız siyasi qurumlar kimi fəaliyyət göstərməmiş, həm də sosial, ideoloji və mədəni proseslərin inteqrasiyaedici elementlərinə çevrilmişdir. Milli siyasi təşkilatlanmanın əsas funksiyalarından biri milli özünüdərkin formalaşması və kollektiv identiklik yaratmaq olmuşdur. "Qeyrət" partiyası milli siyasi iradənin ilkin nümunəsi kimi federativ ideyaların təşviqinə xidmət etmiş, ideoloji və təşkilati baxımdan sonrakı partiyalar üçün intellektual və struktur əsas yaratmışdır.

"Difai" və "Müdafiə" təşkilatları isə milli müdafiə və özünümüdafiə funksiyasına fokuslanmış, regionlarda sosial ədalət, torpaq və hüquq sahəsində faktiki protomərkəz rolunu oynayaraq milli siyasi təşəbbüslərin praktik tərəfini təmin etmişdir. Onların fəaliyyəti göstərmişdir ki, milli siyasi təşkilatlanma yalnız ideoloji təşəbbüslərlə deyil, həm də praktiki ictimai və təhlükəsizlik ehtiyacları ilə sıx bağlıdır. "Müsavat" partiyası bu proseslərin kulminasiya nöqtəsi olmuş, milli-demokratik ideologiyanın sistemləşdirilməsini və konseptual dərinləşməsini təmin etmişdir. M.Ə.Rəsulzadənin

ideoloji rəhbərliyi partiyanın panislamist ritorikadan milli-demokratik konsepsiyaya keçidini mümkün etmiş, hüceyrə prinsipi və konspirativ struktur isə onun uzunmüddətli fəaliyyətinə zəmin yaratmışdır. Bu isə göstərir ki, milli siyasi təşkilatlanma intellektual, ideoloji və struktur baxımdan kompleks və məqsədyönlü sistem olaraq formalaşmışdır. Geniş nəzəri baxımdan, bu təşkilatlar milli dövlətçilik düşüncəsinin və demokratik siyasi təfəkkürün prototipləri kimi dəyərləndirilə bilər. Onlar göstərmişdir ki, milli siyasi təşkilatlanma yalnız etnik və dini ziddiyyətlərin nəticəsi deyil, eyni zamanda sosial bazanın mövcudluğu, mərkəz-ucqar münasibətlər, maarifçilik və intellektual təşəbbüslərlə birbaşa bağlıdır.

Beləliklə, XX əsrin əvvəllərində Şimali Azərbaycanda siyasi təşkilatlanma həm regional təhlükəsizlik, həm sosial ədalət, həm də ideoloji identiklik aspektlərini birləşdirən kompleks proses kimi qiymətləndirilə bilər. Bu təşkilatlar milli siyasi mədəniyyətin formalaşmasına və gələcək müstəqil dövlətçilik ideyalarının inkişafına əsaslı təkan vermişdir.

## Ədəbiyyat

1. Azərbaycan MDTA, f. 7, siy. 1, iş 620, v. 162; f. 12, siy. 13, iş 250, v. 44–45.
2. Bağırzadə, C. V. (2006). *Difai partiyası: Yaranması və fəaliyyəti*. Nurlan nəşriyyatı.
3. Baykara, H. (1992). *Azərbaycan istiqlal mübarizəsi tarixi*. Azərnəşr.
4. Qafarov, V. (2020). *Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918–1922)*. Mütərcim.
5. Məmmədov, X. M. (2005). *Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəlləri)*.
6. Muradov, Z. (2013, May 25). Cümhuriyyətə doğru üç addım. *525-ci qəzet*, s. 11. https://www.anl.az/down/meqale/525/2013/may/311708.files/311825.htm?utm_source=chatgpt.com
7. Müdafiə. (2005). *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası* (II cild). Lider.
8. Rusiya müsəlmanları türk-tatar millətlərinin hüquq müdafiə cəmiyyətləri. (2005). *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası* (II cild). Lider.
9. Süleymanova, S. Y. (2022). *Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu – XX əsrin əvvəlləri)* (2-ci nəşr, düzəliş və əlavə edilmiş). "OPTİMİST" çap mərkəzi.
10. Sünbül, T. (1990). *Azerbycan dosyası*. Detay Basım Cilt ve Mücellithanesi, Kök Yayınları, Yenisey Ltd Şti.
11. Svyatochovskiy, T. (1990). Russian Azerbaijan, 1905–1920. *Khazar, 1*, 83–109; 2, 78–103; 3, 33–62.
12. Swietochowski, T. (1988). *Muslim communities and national identity: Russian Azerbaijan, 1905–1920*. Bağlam Yayınları.

Daxil oldu: 30.10.2025
Qəbul edildi: 19.01.2026